# Milyonların izdihamı, böyük şəxsiyyətə inamın ifadəsi

**Azərbaycan dövlətçiliyinə və müstəqilliyimizə qarşı yönəlmiş çevriliş cəhdindən 30 il ötür. 1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər. Azərbaycanda dövlət çevrilişinə növbəti cəhd 1995-ci ilin mart ayında başlandı. Həmin gün "OMON"un Ağstafa və Qazax rayonunda yerləşən bölmələri tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi və hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verdi.**

Belə ki, Rövşən Cavadovun rəhbərlik etdiyi Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvləri 1995-ci il martın 13-də səhər saat 4-də Qazax rayonunda hərbi hissəyə, inzibati orqanların binalarına və poçta hücum edərək onların normal fəaliyyətini xeyli müddət pozmuş, sonra isə Ağstafa rayonunda öz çirkin niyyətlərini davam etdirmişdilər. Dövlət mənafeyini müdafiə edən Ağstafa Polis Şöbəsinin bir əməkdaşı öldürülmüşdü. XTPD-nin üzvləri getdikcə daha da azğınlaşmış, çoxlu sayda silah-sursat ələ keçirərək öz təcavüzlərini daha da genişləndirmişdilər. Daxili işlər naziri, general-mayor Ramil Usubovun 14 mart 1995-ci il tarixli əmri ilə DİN-in Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv olunsa da, XTPD-nin başçısı Rövşən Cavadov bu əmrə tabe olmamış, qardaşı, Xətai rayonunun ovaxtkı prokuroru Mahir Cavadovla birlikdə qeyri-qanuni silahlı dəstələri ilə dövlət başçısı qarşısında müəyyən şərtlər qoymuşdular. Bu, bir daha göstərdi ki, Azərbaycanın müstəqilliyi, beynəlxalq aləmə inteqrasiyası nə onlar, nə də radikal müxalifət üçün önəmli deyilmiş. Belələri şəxsi məqsədlərinə nail olmaq üçün hər cür çirkin vasitədən istifadə etməyə hazır idilər.

Ulu öndər Heydər Əliyevin 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla həmrəy olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdinə aydınlıq gətirərkən demişdi: "Bunların bir sıra səbəbləri var. Bu səbəb də ondan ibarətdir ki, biz demokratiya şəraitində yaşayırıq. Ovaxtkı dövlət quruluşu ilə indiki dövlət quruluşu arasında fərq var. Mən demokratiya yolu ilə gedirəm, Azərbaycanda demokratiya prinsiplərini bərqərar edən bir adam kimi çox şeyləri güzəştə gedirəm. Demokratiya yolu ilə getmək, insanlar arasında sülh, əmin-amanlıq, vətəndaş həmrəyliyi, birliyi yaratmaq lazımdır". Azərbaycan Prezidenti Cavadov qardaşlarına, onların başçılıq etdiyi qeyri-qanuni silahlı qruplaşmalara qanunsuz əməllərindən əl çəkmələri barədə dəfələrlə xəbərdarlıq etmişdi, onları əfv edəcəyini bildirmişdi. Hətta Cavadov qardaşlarının atası ilə danışmışdı, ona oğlanlarını vətəndaş müharibəsi, silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etmişdi.

"Bəzi qüvvələr baş qaldırır və son günlər respublikada sabitliyi pozmağa çalışırlar. Qabaqda gedən guya Rövşən və Mahir Cavadov qardaşlarıdır. Onlar Xüsusi Təyinatlı Polis Dəstəsindən istifadə edirlər. Bir dəfə bundan istifadə etməyə çalışdılar. Bəzi qüvvələrin əlində alət oldular. Bir az başa düşdülər, bir az da biz onları bağışladıq. Ancaq indi yenə baş qaldırmışlar. Nə üçün, nə istəyirlər? Açıq demək istəyirəm ki, 1994-cü il oktyabrın əvvəlində dövlət çevrilişinə cəhd göstərən qüvvələrin biri də Rövşən Cavadov olmuşdur. O, Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi adamlarını ələ keçirərək Surət Hüseynovla birlikdə hərəkət etmişlər. Dövlət çevrilişi də məhz oradan başlandı. Gəlib prokurorluğu tutdular, qanunsuz hərəkətlər etdilər. Respublika prokurorunu döydülər, prokurorluğun binasını dağıtdılar, cinayət etdilər". Bu fikirləri 15 mart 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciətində səsləndirib. Ondan sonra çevrilişin ikinci mərhələsinin başlandığını bildirən ulu öndər dedi ki, mən xalqa müraciət etdim. Xalq Prezident Aparatının qarşısına toplaşdı. Rövşən Cavadov başa düşdü ki, o uduzmuşdur, bir şeyə nail ola bilməyəcək. İki gün idi ki, onunla danışıq aparılırdı. Mən onunla hər şeyi danışdım. Bu məsələni sülh yolu ilə həll etmək istəyirdim. O, danışıq aparmaq üçün hər gün söz verirdi, lakin gəlmirdi. Ancaq xalq bura toplaşanda o, özü çıxıb buraya gəldi və bəyan etdi ki, o da Azərbaycanın dövlətçiliyinin tərəfdarıdır, respublikanın prezidentini müdafiə edir. Mitinqdə çıxış etdi və bəyanatlar verdi.

Gecə olmasına baxmayaraq, minlərlə insan ulu öndərin çağırışına səs verdi, meydanlara gəldi, beləliklə də xalq iradəsini, dövlət çevrilişinə qarşı münasibətini ortaya qoydu. Ümummilli liderin çağırışı ilə öz dövlətinin, seçdiyi hakimiyyətin müdafiəsinə qalxan xalqımız birmənalı şəkildə ulu öndərin yanında olduğunu bir daha nümayiş etdirdi. Həmin günün səhəri ulu öndər Heydər Əliyev DİN-in keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasında yerləşən sabiq əməkdaşlar haqqında Fərman imzaladı. Bu sənəddə ölkə başçısı humanizm prinsiplərini rəhbər tutaraq silah və sursatını könüllü təhvil verən əməkdaşların cinayət məsuliyyətinə cəlb olunmamasını və onlar haqqında qanunvericiliklə nəzərdə tutulan digər tədbirlərin tətbiq edilməməsini qərara almışdı. Ulu öndərin bu addımına məhəl qoymayan dəstənin üzvləri Rövşən Cavadovun göstərişi ilə öz millətinə silah tuşlamaqdan belə çəkinmədilər.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, konkret olaraq dövlətin himayəsi ilə yaradılmış həmin silahlı dəstə sonradan onun əleyhinə olan qiyamçı dəstəyə çevrildi, dövlət başçısının çağırışlarına məhəl qoymayaraq, dövlətə tabe olmaqdan boyun qaçırdı. Bu, bir daha onu göstərir ki, 1995-ci ilin mart hadisələri məhz xalqın iradəsi ilə formalaşmış konstitusion hakimiyyətə qarşı silahlı qiyam, Azərbaycan dövlətçiliyinə qarşı xəyanətkarlıq idi. Xatırlatmaq yerinə düşər ki, dövlət çevrilişinə cəhd edən sözügedən qeyri-qanuni silahlı birləşmələrin rəhbəri Rövşən Cavadov və onun ətrafı hakimiyyəti silah gücünə, qeyri-konstitusion yolla ələ keçirməkdə tam israrlı idi və ölkənin ağsaqqallarını, ziyalıları, hətta yaşlı ataları belə dinləmədilər. Lakin onların bu məkrli niyyəti xalq tərəfindən dəstəklənmədi. Əksinə, Azərbaycan cəmiyyətində dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı və xalq xəyanətkar və cinayətkar əməllərə son qoyulmasını tələb edirdi.

30 il öncə bu günlər Azərbaycan böyük bir fəlakətin eşiyindən döndü. Ölkədə hərbi çevriliş cəhdinin qarşısı alındı. Rövşən Cavadovun komandanı olduğu OMON qiyamı yatırıldı. Həmin vaxt bu çevriliş ssenarisində iştirak edən qüvvələr, fərdlər Azərbaycanın siyasi palitrasının bəzi hissəsini təmsil edirdi. Siyasi müxalifətin bəzi komponentləri ilə hərbi müxalifət növbəti dəfə eyni səngərə doluşmuşdu. Eləcə də Türkiyədə bəzi qüvvələr çevriliş planının içində yer alırdı. Məlumata görə, qiyamçılar, hətta hakimiyyət bölgüsü də aparmışdı. Dövlət Şurası yaratmaq, prezident üsul-idarəsini ləğv etmək, sonra seçki keçirmək avantüralarına gedilirdi. 1995-ci il martın 16-dan 17-nə keçən gecə Bakı şəhərində "OMON"çuların qərargahı yaxınlığında başlanan atışmada cəbhə bölgəsində, erməni təcavüzkarlarına qarşı çiyin-çiyinə mübarizə aparan döyüşçülər üz-üzə dayandılar. Sözsüz ki, bu, Azərbaycan üçün faciəli bir mənzərə idi. Torpaqlarımızın işğal olunduğu bir dövrdə, paytaxtda bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçirmək üçün dövlətçiliyimizə qəsd edirdi. Cavadov qardaşlarının hakimiyyəti qeyri-konstitusion yolla ələ keçirmək cəhdləri, hakimiyyət hərisliyi nəticəsində ölkəmizdə qardaş qanı töküldü. Törədilən dövlət cinayətləri Azərbaycana müəyyən zərbələr vursa da, qan tökülsə də, müstəqil dövlətçiliyi bir daha sınaqdan çıxardı. Onun möhkəm, qüdrətli olduğunu göstərdi, qanunsuz zor işlətməyin mənasızlığını sübut etdi. Lakin ümummilli lider Heydər Əliyevin təcrübəsi və qətiyyəti bu qorxunc planın baş tutmasının qarşısını aldı. Mart ayının 17-də həm respublikadakı havadarlarının təsiri altında, həm də xaricdə olan ayrı-ayrı dairələrin, qüvvələrin - ölkəmizə qarşı təxribatçılıq hərəkətləri aparmaq istəyən şəxslərin göstərişi, məlumatları əsasında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışanların niyyəti baş tutmadı. Təxribatçılar, Azərbaycan dövlətçiliyini dağıtmaq istəyən qüvvələr məhv edildi. Respublikada dövlət çevrilişinə cəhd edən, dövlətçiliyimizə zərbə vurmaq istəyən dəstə dağıdıldı.

1995-ci ilin mart hadisələri Azərbaycan dövlətçiliyinə qarşı xəyanətkarlıq idi. Mart hadisələri zamanı ulu öndər Heydər Əliyevin nüfuzu və xalqın dəstəyi dövlət çevrilişinin qarşısının alınmasının əsas səbəbi idi. Beləliklə, Azərbaycanın bütövlüyünün qorunmasını özünün tarixi missiyası sayan ulu öndər Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisələrin qarşısını aldı. Böyük şəxsiyyətin qətiyyəti, müdrik daxili və xarici siyasəti Azərbaycanda silah gücünə dövlət çevrilişi etmək cəhdlərini puça çıxartdı, ölkəmizin möhkəm və qüdrətli olduğunu göstərdi. Bütün bunlar xalqın müdrikliyinin, milli həmrəyliyinin, inamının, dövlətçiliyə hörmət və ehtiramının güclü olduğunu, Azərbaycan Respublikasının demokratik əsaslarının möhkəmliyini, konstitusiya və qanunlardan kənar fəaliyyətin yolverilməzliyini nümayiş etdirdi.

Müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusu, dahi və müdrik şəxsiyyət, dünyaşöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılması, qorunması, təməllərinin möhkəmləndirilməsi, inkişafı, tərəqqisi, qüdrətli ölkəyə çevrilməsi uğrunda fədakarlığı nəticəsində müstəqil və güclü Azərbaycanın əsası qoyuldu. Doğma xalqının böyük təəssübkeşi olan ulu öndər Heydər Əliyev mürəkkəb tarixi şəraitlərdə ölkəmizin bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməklə, gələcək Azərbaycanın ictimai-siyasi, mədəni həyatında uğurları ilə əbədiləşdi və xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynayan Siyasi Liderə çevrildi. Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşdırılmasında fədakar xidmətləri ilə ulu öndər Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirdi. Onun dövlətçilik fəaliyyəti müstəqilliyin möhkəmləndirilməsinə böyük töhfələr verdi.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 15 mart (№ 57).- S.6.